# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 80

Bakı şəhəri "22" sentyabr 2015-ci il

**"Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 569 nömrəli Fərmanının icrası barədə"**

"Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 569 nömrəli Fərmanının icrası məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin bütün idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri müəssisələrdə kargüzarlıq işinin aparılması Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a (bundan sonra-"Təlimat") və orada edilən dəyişikliklərə uyğun həyata keçirilməsi təmin edilsin.

2. Ümumi şöbənin müdiri L.Əli-zadəyə tapşırılsın:

2.1. Səhiyyə Nazirliyinin struktur bölmələrinə, idarə və müəssisələrinə Təlimatın çatdırılması təmin edilsin;

2.2. Səhiyyə Nazirliyinin Aparatında istifadə olunan blankların və ştampların Təlimata uyğunlaşdırılması təmin edilsin;

2.3. kargüzarlığı aparan işçilərə müvafiq təlimlərin keçirilməsi təmin edilsin və mütəmadi olaraq onlara metodiki yardım göstərilsin.

3. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini müvəqqəti icra edən E. Əzizova tapşırılsın ki, Səhiyyə Nazirliyinin normativ hüquqi aktlarının bu Təlimata uyğunlaşdırılması ilə bağlı təkliflər 1 ay müddətində təqdim edilsin.

4. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Z.Mustafayevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**